"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır".



**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli lideri**



# Məktəbəqədər təhsil nədir?

Məktəbəqədər təhsil Azərbaycan Respublikasında fasiləsiz təhsil sisteminin ilk pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən prioritet fəaliyyət sahəsidir.

Məktəbəqədər təhsil uşağın məktəb həyatına hazırlanmasının mühüm mərhələsidir.



Məktəbəqədər təhsil uşaq şəxsiyyətinin formalaşmasına və inkişafına, daim dəyişən mühitə müvəffəqiyyətlə uyğunlaşmasına şərait yaradır. Aparılmış tədqiqatlar sübut etmişdir ki, məhz məktəbəqədər yaş dövrü insanın intellektinin, şəxsiyyətinin formalaşması, sosial və emosional inkişafı üçün çox mühüm mərhələdir.

## Məktəbəqədər yaşlı uşaqların oyun və əmək fəaliyyətinin təşkili

Uşaqların şəxsiyyət kimi formalaşmasında oyun, təlim və əmək fəaliyyəti mühüm əhəmiyyət daşıyır. Məktəbəqədər yaşlı uşaqların aparıcı fəaliyyəti oyunla bağlıdır. Onlar bu prosesdə həyatı dərk etmək, cisim və hadisələrlə tanış olmaq, materialların xassələrini-rəngini, formasını, canlı və cansız aləmlə bağlı bilikləri qazanmaq imkanı əldə edirlər.



M.Qorki qeyd edir ki, "Oyun uşaqların yaşadıqları və dəyişməli olduqları aləmi dərketmə yoludur". Oyun və əmək uşaqlarda fiziki və əqli inkişafı, psixoloji xüsusiyyətləri formalaşdıraraq, onlarda fikri fəallığı, iradi səyi reallaşdırır.

# Məktəbəqədər təhsil müəllimi necə olmalıdır?

Əsrlər boyu müəllim cəmiyyətdə sayılıb-seçilən insanlardan olub. Bu gün də onlar öz vəzifələrinin məsuliyyətini, çətinliyini, müqəddəsliyini dərk edir və gələcək nəslin cavabdehliyini çiyinləri üzərində daşımağa imza ataraq bu yolda heç bir çətinlikdən qorxmayan, zəhməti, fədakarlığı hesabına özünə inanan insanlardır.

İdeal müəllim olmaq məqsədilə çətinliklərdən və çəkilən əziyyət müqabilində əldə olunan uğurlu nəticələrdən zövq alan müəllimlərimizin sayı gündən-günə artır.

Əsl müəllimin pedaqoji fəaliyyəti prosesində uğur və nailiyyətlərinin göstəriciləri xüsusi meyarlarla ölçülməli, tələb olunan standartlara cavab verən səviyyədə olmalıdır.





Müəllim işini ilk növbədə özünümotivasiyadan başlamalıdır. "Mən kiməm?", "Mənim biliyim, peşəkarlığım, öyrənmək və öyrətmək həvəsim hansı səviyyədədir?", "Mən əsl müəllim kimi dövlətimin, cəmiyyətin, qloballaşan dünyanın tələblərini əsas götürüb müasir Azərbaycan uşaqlarına tələb olunan səviyyədə bilik almağın yollarını öyrədə bilirəmmi?", "Onlara bacarıq və vərdişlər aşılamağa yararlıyammı?", "Əgər mən arzuolunan müəllim olmaq istəyirəmsə, hansı keyfiyyətlərə sahib olmalıyam?".

Bundan sonra bu suallardakı məqsədə çatmaq uğrunda müəllim həvəslə və səbirlə səy göstərməlidir. "İntizar gülzarına səbir buludundan su verilərsə, qönçə çiçəklənib artar" söyləyib M.Füzuli.



Azərbaycan Dövlət Pedaqoji Universiteti Ağcabədi filialı




# MƏKTƏBƏQƏDƏR TƏHSİL NƏDİR?

~ AĞCABƏDİ- 2025 ~